# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ

# Q A N U N U

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında

Bu Qanun Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin 10-cu bəndinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 6-cı bəndində əks etdirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün əlavə təminatların yaradılması məqsədi ilə qəbul edilir.

M a d d ə 1. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında hesabatı**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il martın 31-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

M a d d ə 2. **Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən sorğu göndərilməsi**

2.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər.

2.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusuna cavab Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir.

M a d d ə 3. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının sorğuları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası ilə müəyyən edilmiş hallarda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında iştirak edirlər.

M a d d ə 4. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun məhdudlaşdırılması**

4.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz.

4.2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 6 may 2026-cı il

№ 21-VII QN